

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 193 (21.603)

14 oktyabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də “Baku Steel Company” Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) oksigen zavodunun açılışında iştirak edib.

MMC-nin müşahidə şurasının sədri Rasim Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Dövlətimizin başçısı İlham Əliyev zavodu işə salan düyməni basıb.

“Baku Steel Company” MMC ölkəmizin qeyri-neft sektorunda ən böyük vergi ödəyicilərindəndir. Burada son illərdə aparılan yenidənqurma işləri nəticəsində şirkətin illik istehsal gücü 250 min tondan 1,100 min tona çatdırılıb.

Prezident İlham Əliyev polad istehsalı sahəsində məhsulun hazırlanması prosesi ilə tanış olub.

Bu il “Baku Steel Company”də tikişsiz boru istehsalı üçün xammal olan dairəvi pəstahların hazırlanmasına başlanılıb. Hazırda diametri 130, 170, 190, 220 millimetr olan dairəvi pəstahlar müvafiq polad markalarına uyğun olaraq istehsal edilir.

Dövlətimizin başçısı burada istehsal olunan məhsullara baxıb.

Müəssisə ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzulayıb.



## Dövlət müstəqilliyinin bəhrələri

### *Culfa rayonunun Gülüstan kəndində kompleks quruculuq işləri aparılmışdır*

Bu il xalqımız dövlət müstəqilliyinin 25-ci ildönümünü qeyd edir. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsi nəticəsində sürətlə inkişaf edib, müasir görkəm alıb. Muxtar respublikanın kompleks abadlaşan yaşayış məntəqələrindən biri də Culfa rayonunun Gülüstan kəndidir. İnsanlar hələ qədim zamanlardan bu kənddə məskunlaşmış, tarixin müxtəlif dövrlərində kənd inkişaf edərək ticarət və sənətkarlıq mərkəzi kimi şöhrət qazanmışdır. Tarixi abidələri, qədim yaşayış yerləri, təbii sərvətləri ilə yanaşı, bu gün Gülüstan kəndi həm də müasir inkişafı ilə diqqəti cəlb edir. Bu il kənddə geniş quruculuq işləri aparılmış, yeni sosial obyektlər inşa olunmuşdur.

## Naxçıvan-Ordubad magistralı-Culfa şəhər və Gülüstan kənd avtomobil yolu yenidən qurulmuşdur

Culfa rayonunda aparılan abadlıq-quruculuq işləri yol infrastrukturunu da əhatə etmişdir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq oktyabrın 13-də Naxçıvan-Ordubad magistralı-Culfa şəhər və Gülüstan kənd avtomobil yolu yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun açılışını bildirən lenti kəsmiş, sakinləri təbrik edərək demişdir: Culfa şəhərinin giriş avtomobil yolunun və Gülüstan kənd yolunun yenidən qurularaq istifadəyə verilməsi mühüm əhəmiyyət daşıyır. Çünki Culfa şəhərinin abadlığı, inkişafı haqqında ilk təəssürat şəhərin giriş yolundan yaranır. Ona görə də yol yenidən quruldu, ətrafda abadlıq işləri aparıldı.

Sonra Ali Məclisin Sədri yolda görülən yenidənqurma işləri ilə maraqlanmışdır.





Məlumat verilmişdir ki, uzunluğu 11 kilometr olan Naxçıvan-Ordubad magistralı-Culfa şəhər və Gülüstan kənd avtomobil yolu, dəmiryolun üzərindən keçən 65 paqonometrlik körpü əsaslı şəkildə yenidən qurulmuşdur. Yol yatağı genişləndirilərək 10 metrə çatdırılmış, asfalt örtük verilmiş, 2150 metr məsafədə piyada yolu salınmış, işıqlandırma sistemi quraşdırılmış, 38 su keçidi qoyulmuş, 520 metrlik beton kanal çəkilmişdir.

Ali Məclisin Sədri yol kənarlarında yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

## Gülüstan kəndində yeni məktəb binası istifadəyə verilmişdir

Muxtar respublikada təhsilin inkişafına hərtərəfli qayğı göstərilir. Hər il onlarla yeni məktəb binası tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilir.

Oktyabrın 13-də Gülüstan kənd tam orta məktəbinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Məktəbin direktoru Bəhrəm İsmayılov çıxış edərək demişdir ki, muxtar respublikamızda bütün sahələr kimi, təhsil quruculuğu da diqqətdə saxlanılır. Bunun bariz nümunələrindən biri də bu gün açılışına toplaşdığımız Gülüstan kənd tam orta məktəbidir. Məktəbdə yaradılan şərait kollektiv qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələri dərindən dərk edən pedaqoji heyət vətənpərvər gənclərin yetişdirilməsi yolunda səylə çalışacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gülüstan kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Təhsilə hər bir ölkənin gələcəyidir. Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Bu amili əsas götürən ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir”***.



Ali Məclisin Sədri demişdir: Ölkəmizin gələcək təminatçıları məktəblərdə hazırlanır. Bu işdə müəllimlərin üzərinə mühüm vəzifələr düşür. Ona görə də müəllimlər üzərlərinə düşən məsuliyyəti dərk etməli, məktəblərdə təhsilli, vətənpərvər və fiziki cəhətdən sağlam gənc nəsil yetişdirilməlidir. Bunun üçün, ilk növbədə, müəllimlər ixtisaslarını təkmilləşdirməli, müasir tədris metodlarını mənimsəməli, müəllim-şagird münasibətləri qarşılıqlı hörmət və tələbkarlıq əsasında qurulmalıdır. Gənclər isə yaxşı təhsil almalı, peşə öyrənməli, özlərini gələcəyə hazırlamalıdırlar. Bu gün istifadəyə verilən Gülüstan kənd tam orta məktəbində bu vəzifələrin yerinə yetirilməsi üçün hərtərəfli şərait yaradılmışdır. Məktəbin nailiyyətləri onu deməyə əsas verir ki, məktəbdə tələbkarlıq var, tədrisin səviyyəsi yüksəkdir. Ali məktəblərə qəbulda Gülüstan kənd tam orta məktəbinin məzunlarının göstəriciləri kəmiyyət və keyfiyyət baxımından qənaətləndiricidir.

Qazanılan nailiyyətlərə görə kollektivə təşəkkür edən Ali Məclisin Sədri demişdir ki, məktəbin yetirmələri Azərbaycanın gələcək inkişafına, müstəqilliyimizin möhkəmlənməsinə öz töhfələrini verəcəklər. Bu gün Azərbaycanda təhsil prioritet sahədir. Dövlətimiz yeni məktəb binaları tikməklə, müasir tədris şəraiti yaratmaqla, müəllimlər isə yaradılan şəraitdən səmərəli istifadə edərək təhsilli və vətənpərvər gənclər yetişdirməklə ölkəmizin gələcək inkişafına təminat verirlər.

Ali Məclisin Sədri Gülüstan kənd tam orta məktəbində qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə və nailiyyətlərin daha da artacağına əminliyini bildirmiş, kollektivə tədrisdə uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 156 şagird yerlik məktəbdə 4-ü elektron lövhəli olmaqla, 13 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, şahmat otağı, kitabxana,

*Ardı 2-ci səhifədə*





bufet, idman zalı və açıq idman qurğuları vardır. Kompüter otağında 13 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Kitabxanada 945 dərslik və 1337 bədii ədəbiyyat olmaqla, 2282 kitab kollektivin istifadəsinə verilmişdir.

Gənclərin sağlam böyüməsində idmanın xüsusi yeri vardır. Gülüstan kənd tam orta məktəbində müasir idman zalı istifadəyə verilmişdir. Hərbi kabinədə də lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri şagirdlərin fiziki və hərbi hazırlığına ciddi diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir.

Təhsil ocağında dəqiq elmlərin tədrisi üçün hər cür şərait yaradılmış, fizika, kimya və biologiya laboratoriyalarında tədris proqramına uyğun ən müasir sınaq-təcrübə avadanlıqları quraşdırılmış, əyani vəsaitlər qoyulmuşdur.

Elektron lövhəli sinifdə Naxçıvan Dövlət Xalça Muzeyi ilə əlaqə yaradılmış və distant dərs keçirilmişdir.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Gülüstan kənd tam orta məktəbində yaradılan şərait imkan verəcəkdir ki, bundan sonra da məktəbdə ölkəmiz və xalqımız üçün yararlı gənclər yetişdirilsin. Gənclərin peşə sahibi olması, vətənpərvər böyüdülməsi bu gün qarşıda duran əsas vəzifədir. Bu il dövlət müstəqilliyimizin 25 ili tamam olur. Müstəqilliyimizin gələcək təminatçıları bu gün məktəblərdə hazırlanan gənclərdir. Ona görə də pedaqoji kollektiv gənclərin təhsilinə ciddi diqqət yetirməli, onların vətənpərvər böyüdülməsi qayğısına qalmalıdırlar.

Müəllim Günay Rəfizadə yaradılan müasir tədris şəraitinə görə kollektiv adından minnətdarlıq etmiş, qarşıya qoyulan vəzifələri və verilən tapşırıqları uğurla yerinə yetirəcəklərini bildirmişdir.



## Gülüstan kəndində yeni içməli su sistemi qurulmuşdur

Muxtar respublikanın kəndlərində quruculuq işləri aparılarkən sakinlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır. Bu sahədə görülən işlər içərisində içməli su təminatı xüsusi yer tutur.

Oktyabrın 13-də Gülüstan kənd içməli su sisteminin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, "Culfa şəhərinin və ətraf kəndlərin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Culfa şəhərinin girişində yeni su anbarı və sutəmizləyici qurğu kompleksi inşa olunmuşdur. Tikinti işləri aparılarkən su anbarından Gülüstan kəndinədək 160 millimetrlik borularla 2 kilometr, kənddaxili isə 7,3 kilometr içməli su xətləri çəkilmiş, 157 abonent daimi və ekoloji təmiz içməli su ilə təmin olunmuş, sayğaclar quraşdırılmışdır.

Ali Məclisin Sədri Gülüstan kənd içməli su şəbəkəsinin istifadəyə verilməsini bildirən qurğunu işə saldı.

## Kənd mərkəzi istifadəyə verilmişdir





Oktyabrın 13-də Gülüstan Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, binada rabitə evi, polis sahə və baytarlıq məntəqələri, feldşer-mama məntəqəsi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, statistika otağı, bələdiyyə və klub yerləşir. Kənd kitabxanasında 6555 kitab vardır. İclas zalı müxtəlif tədbirlərin keçirilməsinə imkan verəcəkdir.

Baytarlıq məntəqəsində dərman vasitələrini saxlamaq üçün soyuducu qoyulmuş, baytarlara nümunəvi iş şəraiti yaradılmışdır. Baxış zamanı qeyd olunmuşdur ki, Gülüstan kəndində əhalinin əsas məşğuliyyət sahəsinin heyvandarlıq, quşçuluq və arıçılıq olması baytarlıq xidmətinin nümunəvi təşkilini zəruri edir. Dezinfeksiya işlərinin vaxtlı-vaxtında aparılması kənddə yoluxucu xəstəliklərin yayılmasının qarşısını almışdır.

Yeni Azərbaycan Partiyası Gülüstan kənd ərazi ilk təşkilatının sədri Kəmalə Səfərova



demişdir: Ərazi ilk təşkilatı üzrə 108 Yeni Azərbaycan Partiyası üzvü vardır. Onlardan 42-si gənclər, 57-si isə qadınlardır. Gülüstan kəndində geniş quruculuq işləri aparılıb. Kənd müasir görkəmə qovuşub, yeni sosial obyektlər tikilib, Gülüstan türbəsi bərpa olunub. Kəndin tarixinin yaşadılmasına da, müasir inkişafına da lazımi qayğı göstərilir. Artıq kənddə işləmək də, təhsil almaq da, yaşamaq da çox rahatdır. Fəxr edirik ki, bu işlər Yeni Azərbaycan Partiyası tərəfindən görülür. Bundan sonra da ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinə sadiq qalacaq, tikilənləri, qurulanları qoruyub saxlayacaq, ölkəmizin inkişafına öz töhfələrimizi verəcəyik.

Rabitə evində 384 nömrəlik yeni ATS quraşdırılmış, kəndə 1550 metr fiberoptik kabel xətti çəkilmiş, poçt xidməti təşkil olunmuşdur. Poçt şöbəsində kommunal xidmət haqlarının və digər ödənişlərin aparılması üçün lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri feldşer-mama məntəqəsində yaradılan şəraitlə tanış olmuşdur. Bildirilmişdir ki, kənd mərkəzində feldşer-mama məntəqəsi üçün 4 otaq ayrılmışdır. Burada hər cür şərait yaradılmış, məntəqəyə soyuducu, təcili yardım və peyvənd çantaları, lazımi dərman vasitələri verilmişdir. Yaradılan şərait əhaliyə göstərilən ilkin tibbi xidmətin hərtərəfli təşkilinə imkan verəcəkdir.

Binanın həyətində də abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

*Ardı 3-cü səhifədə*

# Gülüstan kəndində xidmət mərkəzi fəaliyyətə başlamışdır

Həmin gün Gülüstan kəndində yeni xidmət mərkəzinin açılışı olmuşdur.

Ali Məclisin Sədri xidmət mərkəzinin açılışını bildirən lenti kəsmişdir.

Mərkəzdə mağaza və bərbərxana yerləşir. Yaradılan şərait gündəlik ərzaq və sənaye mallarına olan tələbatın kəndin özündə ödənməsinə imkan verəcəkdir. Xidmət mərkəzində 2 nəfər işlə təmin olunmuşdur.



Kənd sakinləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Gülüstan kəndi öz adına layiq olaraq qurulub, müasirləşdirilib. Dövlətimiz tərəfindən bu tədbirlər ona görə həyata keçirilir ki, insanlar rahat yaşasın. Bu gün ölkəmiz inkişaf edir, sabitlik şəraitində yaşayırıq. Bu il dövlət müstəqilliyimizin 25-ci ildönümünü qeyd edəcəyik. Müstəqilliyimizin yaradıcısı ümummilli liderimiz Heydər Əliyevdir. Ulu öndərin yolunun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmiz daha da inkişaf edir, şəhərlərimiz, kəndlərimiz müasirləşir, insanların yaşayış səviyyəsi yaxşılaşır. Müstəqilliyimizin möhkəmləndirilməsində, ölkəmizin inkişafında vətəndaşların da böyük əməyi vardır. Sakinlər bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə etməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalı, hər kəs ölkəmizin inkişafında pay sahibi olmalıdır.






Ali Məclisin Sədri dövlət müstəqilliyinin 25-ci ildönümü münasibətilə sakinləri təbrik etmiş, onlara firavan həyat arzulamışdır.

Kənd sakini Surxay Məmmədov minnətdarlıq edərək demişdir ki, yeni sosial obyektlərin tikilməsi, içməli su sisteminin çəkilməsi, yolun abadlaşması, Gülüstan türbəsinin bərpa olunması kəndin tarixində yeni inkişaf mərhələsinin əsasını qoymuş, kənd əsl gülüstana çevrilmişdir. Həyata keçirilən tədbirlər kəndin turizm imkanlarını artırmışdır. Hər bir sakin fəxr edir ki, müstəqilliyimizin bəhrəsi olan müasir Azərbaycan kəndində yaşayır. Yaradılan bu şərait imkan verir ki, təsərrüfatlarımızı daha da genişləndirək, bol məhsul istehsal edək. Sakinlər kəndin inkişafında, abadlaşmasında bundan sonra da yaxından iştirak edəcəklər.

* * *

Gülüstanda kənddaxili 2700 metr rabitə xətti və 1100 metr elektrik xətti çəkilmiş, mövcud elektrik xətlərində və transformatorlarda təmir işləri aparılmışdır. Abadlıq işləri aparılarkən qaz xətləri də yenilənmişdir.

# Gülüstan kəndindəki quşçuluq təsərrüfatının fəaliyyəti genişləndirilir





Muxtar respublikamızda sahibkarlığın inkişafı və yerli istehsalın həcminin artırılması sahəsində ardıcıl tədbirlər görülür. Yaradılan əlverişli şərait, güzəştli şərtlərlə kreditlərin verilməsi şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də yeni təsərrüfat sahələrinin yaradılmasına imkan verir.

Oktyabrın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gülüstan kəndindəki quşçuluq təsərrüfatının fəaliyyəti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, quşçuluq təsərrüfatı 2013-cü ildə Sahibkarlığa Kömək Fondu tərəfindən verilən güzəştli kredit hesabına yaradılmışdır. Ət və yumurtalıq istiqamətində fəaliyyət göstərən təsərrüfatda 1000 başdan artıq hindquşu saxlanılır. Muxtar respublikada quşçuluq təsərrüfatları üçün qüvvəli yem istehsalının həyata keçirilməsi və daxili bazarın qorunması təsərrüfatın rentabelli işləməsinə və fəaliyyətinin daha da genişləndirilməsinə imkan verir. İstehsal olunan məhsullar rahat şəkildə bazara və kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarına çıxarılır.

Sahibkar Bəhruz İsmayılov yaradılan şəraitə və göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri muxtar respublikanın kəndlərində heyvandarlıq və quşçuluq təsərrüfatlarının yaradılmasının əhəmiyyətini bildirmiş, özəl bölmənin inkişafı üçün yaradılan şəraitdən səmərəli istifadə etdiyinə görə sahibkara təşəkkür etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatlarının hesabat-seçki yığıncaqları keçirilir

*Sədərək rayonunun Sədərək kənd 1 və 2 nömrəli tam orta məktəblərinin, uşaq bağçasının və inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin ilk partiya təşkilatlarının birgə hesabat-seçki yığıncağı keçirilib. Hesabat-seçki yığıncağını giriş sözü ilə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov açaraq gündəlikdə duran məsələlər barədə məlumat verib.*



Sonra ilk partiya təşkilatı sədrlərinin hesabatları dinlənilib. Bildirilib ki, Sədərək kəndi ölkəmizin sərhəd bölgələrindən biridir. Bu gün müasirliyə qovuşmuş Sədərək kəndi hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Son illər bu yaşayış məntəqəsində kompleks quruculuq tədbirləri həyata keçirilib. Kəndin və rayonun burada fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarına müasir iş şəraiti yaradılıb, yeni inzibati binalar tikilərək istifadəyə verilib. Bütün bunlar kənd sakinlərinin sərhəd bölgəsində qurub-yaratmaq əzmini xeyli yüksəldib.

Vurğulanıb ki, partiyanın Proqram və Nizamnaməsini əlində rəhbər tutan 4 ilk partiya təşkilatı Yeni Azərbaycan Partiyasının avanqard rolunun daha da yüksəldilməsində fəallıq göstərir. İlk partiya təşkilatlarının qeydiyyatında duran Yeni Azərbaycan Partiyasının üzvləri burada həyata keçirilən tədbirlərdə fəallıq göstərir, kənd adamlarının ideya-siyasi cəhətdən maarifləndirilməsi üçün üzərlərinə düşən vəzifələri yerinə yetirməyə çalışırlar. Partiya sıralarının genişləndirilməsi daim diqqət mərkəzində saxlanılır, gənclərin və qadınların partiyada təmsilçiliyinə ciddi önəm verilir.

Hesabat-seçki yığıncağının iştirakçıları ilk partiya təşkilatlarının birillik fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

Sonra həmin ilk partiya təşkilatlarının Sədərək kənd ərazi ilk təşkilatında birləşdirilməsi məsələsinə baxılıb. Həmin məsələ səs çoxluğu ilə müsbət həllini tapıb.

Yığıncaqda 11 nəfər idarə heyətinin üzvü, ərazi ilk partiya təşkilatının sədri və 4 müavini, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının XI konfransına 13 nümayəndə seçilib.

Hesabat-seçki yığıncağına Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov yekun vurub.

* * *

Həmin gün Yeni Azərbaycan Partiyası Şərur rayon Dəmirçi kənd, Ordubad Rayon Mərkəzi Xəstəxanası, Culfa Rayon Dəmir Yolu ərazi ilk partiya təşkilatlarında da hesabat-seçki yığıncaqları keçirilib.

Yığıncaqlarda təşkilat sədrlərinin hesabat məruzələri dinlənilib, təşkilatların idarə heyətlərinin üzvləri, sədrləri, müavinləri, Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının konfranslarına nümayəndələr seçilib.

**Xəbərlər şöbəsi**

*14 oktyabr Beynəlxalq Standartlaşdırma Günüdür*

## Standartlaşdırma iqtisadiyyatın idarə olunmasının başlıca vasitəsidir

***Beynəlxalq Standartlaşdırma Təşkilatının yarandığı gün – oktyabrın 14-ü hər il ölkəmizdə də “Beynəlxalq Standartlaşdırma Günü” kimi qeyd edilir.***

Müasir dövrdə standartlaşdırma çoxşaxəli inkişafın tənzimlənməsi üçün istər ölkədaxili, istərsə də beynəlxalq aləmdə əsas meyar kimi qəbul olunur. Standartlaşdırmanın əsas məqsədləri istehsalın effektivliyinin artırılmasından, istehlakçılara çatdırılan məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsindən, insan sağlamlığının qorunması istiqamətində təhlükəsizlik normalarının daha da təkmilləşdirilməsindən, ətraf mühitin qorunmasından və ticarətdə texniki maneələrin aradan qaldırılmasından ibarətdir.

Ölkəmizdə standartlaşdırma sahəsinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra bu sahəyə diqqət və qayğı daha da artırılmış, hüquqi baza möhkəmləndirilmiş, “Standartlaşdırma haqqında”, “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında”, “Yeyinti məhsulları haqqında” qanunlar və digər hüquqi sənədlər qəbul edilmişdir. Standartlaşdırma sahəsində həyata keçirilən islahatlar hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Azərbaycan Respublikasında standartlaşdırmanın inkişaf etdirilməsi, beynəlxalq standartlara harmonizasiya, beynəlxalq tələblərə cavab verən yeni milli standartların yaradılması və standartlar fondunun genişləndirilməsi, təkmilləşdirilməsi əsas məqsədlərdəndir. Azərbaycanda keyfiyyət infrastrukturunun inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilməkdədir. Bu gün Azərbaycan Beynəlxalq Standartlaşdırma Təşkilatının, Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Avrasiya Standartlaşdırma Təşkilatının və Türkdilli Ölkələrin Bölgələrarası Standartlaşdırma Birliyinin üzvüdür.

Hazırda ölkəmizdə beynəlxalq standartların tətbiqi ilə bağlı mühüm proqramların qəbulu və icrası uğurla davam etdirilir. Ölkəmizdə milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması, müasir tələblərə uyğun yeni milli standartların qəbulu və tətbiqi prosesi də uğurla icra olunmaqdadır. Əsas hədəf ölkədə standartlaşdırmanın inkişaf etdirilməsi, beynəlxalq tələblərə cavab verən yeni milli standartların yaradılması və standartlar fondunun təkmilləşdirilməsindən ibarətdir. Çünki standartlaşdırmanın təkmilləşdirilməsi ölkə iqtisadiyyatının, sahibkarlığın inkişafında, istehlakçı hüquqlarının etibarlı qorunmasında, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsində başlıca amildir.

Naxçıvan Muxtar Respublikasında da keyfiyyətə nəzarət infrastrukturunun inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya və uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilir. Bu istiqamətlər üzrə fəaliyyətin davamlı dövlət qayğısı ilə əhatələnməsi səmərəliliyin artırılması üçün geniş imkanlar yaratmaqdadır. Məhz bu tədbirlərin davamı kimi hazırda Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üçün yeni inzibati bina inşa olunmaqdadır. Komitə üçün yeni binanın istifadəyə verilməsi əməkdaşların iş şəraitinin müasir tələblər əsasında qurulması ilə yanaşı, bu sahədə görülən işlərin keyfiyyətinə də müsbət təsir göstərəcəkdir. Eyni zamanda ötən dövr ərzində ölçmə vasitələrinin yoxlanılması üçün müasir tipli yeni avadanlıqların alınaraq muxtar respublikaya gətirilməsi komitə qarşısında qoyulan vəzifələrin yüksək səviyyədə icrasına imkan yaratmışdır.

Yeni, beynəlxalq tələblər səviyyəsində standartların tətbiqinə geniş imkan yaradan amillərdən biri də muxtar respublika iqtisadiyyatının sürətli inkişafı, istehsal müəssisələrinin müasir standartlara cavab verən maddi-texniki baza ilə təchiz olunmasıdır. Muxtar respublikada istehsal olunan məhsulların yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli olması, görülən işlərin və göstərilən xidmətlərin müasir standartlara cavab verməsi qarşıda duran prioritet vəzifələrdəndir. Məqsəd istehlakçıların tələblərinə əsaslanan iqtisadiyyatın inkişafına nail olmaq, daxili, eləcə də xarici bazara keyfiyyətli məhsul çıxarılması prosesini sürətləndirməkdir. Bu isə standartlaşdırma sahəsində fəaliyyətin müasir tələblər əsasında qurulması ilə mümkündür.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi keyfiyyətə nəzarət infrastrukturunun və bu sahədə texniki tənzimləmə sisteminin qabaqcıl tələblərə uyğunlaşdırılmasını, istehlakçılara təklif olunan məhsulların keyfiyyətinin müasir standartların tələblərinə cavab verməsini və əhalinin etibarlı ərzaq məhsulları ilə təmin olunmasını fəaliyyətində əsas istiqamət kimi götürür. Cari ilin 9 ayı ərzində 24 milli standart, 1 sahə standartı və 2 texniki şərt komitənin standartlaşdırma fondunda qeydiyyata alınmışdır. Hazırda standartlaşdırma fondunda Azərbaycan Respublikasında qüvvədə olan 917 milli standart, 17 min 218 dövlətlərarası standart, 24 beynəlxalq standart, 30 Avropa standartı, 1 Rusiya standartı, 2 sahə standartı, 30 texniki şərt, 40 təsnifat, 1143 rəhbəredici sənəd, 173 metodiki sənəd, 2 təlimat olmaqla, ümumilikdə, 19 min 580 texniki normativ-hüquqi akt toplanmışdır.

Standartların təsərrüfat subyektlərinə çatdırılması və maarifləndirilməsi üzrə hüquqi və fiziki şəxslərlə 183 müqavilə bağlanmışdır. Muxtar respublikada fəaliyyət göstərən müəssisələrdə istehsal olunan məhsulların standartlara uyğun olaraq qablaşdırılması və etiketlənməsi, onların müasir dizayn və tərtibatda hazırlanmasına metodiki köməklik göstərilmiş, 79 müəssisədə istehsal olunan 129 məhsulun etiket layihəsi texniki normativ-hüquqi aktlara uyğun olaraq 3 dildə hazırlanmışdır. Almaniyanın “DQS UL Group” şirkətinin Azərbaycan təmsilçiliyinin rəhbəri tərəfindən muxtar respublikada fəaliyyət göstərən müəssisələrin rəhbərləri üçün “Peşə sağlamlığının və təhlükəsizliyinin idarə edilməsi” beynəlxalq standartı üzrə seminar keçirilmişdir. Komitənin standartlar fondunda mövcud olan standartların tələbləri ilə sahibkarları tanış etmək və bu sahədə maarifləndirmək məqsədilə 5 seminar keçirilmişdir.

Bu gün dünyada keyfiyyət standartlarının tətbiqi əsas meyar sayılır. Müəssisələrin gəlirlərindən, fəaliyyət sahəsindən, işinin həcmindən və bazardakı mövqeyindən asılı olmayaraq fəaliyyətlərinin ən səmərəli yolu beynəlxalq standartların tələblərinə uyğun idarəetmə sisteminin qurulmasıdır. Bu səbəbdən də muxtar respublikamızda əhalinin sağlamlığının və istehlakçıların hüquqlarının qorunması, ətraf mühitin mühafizəsi məqsədilə standartlaşdırma sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər bundan sonra da uğurla davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## “İsinsin azacıq bu daş duyğular” adlı sərgi təşkil olunub



***Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda rəssam Kirman Abdinin “İsinsin azacıq bu daş duyğular” adlı fərdi sərgisi açılıb. Muxtar respublika Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən qrafik sərgi Xalq şairi Məmməd Arazın poeziyasına həsr olunmuşdu. Fərdi yaradıcılıq sərgisi sənət adamları və geniş ictimaiyyət tərəfindən maraq və rəğbətlə qarşılanıb.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva sərgiyə təqdim olunan əsərlərin əhəmiyyətindən söz açıb, muxtar respublikada rəssamlıq sənətinə, eləcə də Məmməd Araz irsinə göstərilən dövlət qayğısından danışıb.

Ülviyyə Həmzəyeva deyib ki, rəssamın sərgidə nümayiş olunan 60-dək sənət əsəri görkəmli şairin yaradıcılığını əhatə edir. Məmməd Araz şəxsiyyətinə, poeziyasına və fəlsəfəsinə Azərbaycan təsviri sənət aləmində çox az rəssamlar müraciət edib. Doğrudan da, Məmməd Araz poeziyasının və yaradıcı təxəyyülünün bədii görüntüsünü və bədii estetik obrazını yaratmaq, ilk növbədə, rəssamdan xüsusi məsuliyyət tələb edir. Rəssamın Məmməd Araz poeziyasının Vətən haraylı çağırışlarını özündə əks etdirən bədii sərgisinin təşkil olunması təqdirəlayiq haldır. Məmməd Araz bədii duyumu və Məmməd Araz dünyagörüşü heç bir çərçivəyə, məhdud məkan sərhədinə sığa bilməz. Ona görə də rəssamın mücərrəd biçimli bədii axtarışları və Məmməd Araz poeziyası ilə çuğlaşan əksliklər burulğanı sonda rəssam tərəfindən şairin poetik fikirləri ilə tam üst-üstə düşən, bədii estetikliyi ilə diqqəti cəlb edən görüntülərə çevrilib. Sərgidəki tablolarda rahatlıqla Məmməd Araz poeziyasının nəhayətsizliyinin və rəssam fantaziyasının çalarlarının vəhdətini görmək və sezmək mümkündür. Əgər Məmməd Araz poeziyası, Məmməd Araz duyumu hansısa şərhi-bəyansız, izahsız qəbul edilirsə, bunu rəssam Kirman Abdinin şairin yaradıcılığına həsr edilmiş tablolarına da şamil etmək olar.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar çıxış edərək Məmməd Araz yaradıcılığının zənginliyindən danışıb. Vurğulayıb ki, onun yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafında mühüm mərhələ təşkil edir və gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşması baxımından müstəsna əhəmiyyətə malikdir.

Böyük sənətkarın zəngin ədəbi fəaliyyətinin Azərbaycan poeziyasına bir-birindən dəyərli sənət inciləri bəxş etdiyini bildirən Asim Yadigar rəssamın öz əsərlərində Məmməd Araz yaradıcılığını mükəmməl şəkildə canlandırmasını yüksək qiymətləndirib.

Rəssam Kirman Abdin sərginin təşkil edilməsində əməyi olan hər kəsə minnətdarlığını bildirib, sərgiyə böyük maraq göstərilməsindən məmnunluğunu ifadə edib. O deyib ki, mənim üçün Məmməd Araz yaradıcılığı hər zaman maraqlı olub. Onun yaradıcılığına üç aspektdən yanaşmağa – həyata gülən, həyatda qəm çəkən və həyatda düşünən Məmməd Arazı göstərməyə çalışmışam. Qrafik üslubda Məmməd Araz poeziyasına müraciət etmək, mənə elə gəlir ki, bir müəllif olaraq məndən məsuliyyət tələb edirdi. Sevinirəm ki, zəhmətim öz bəhrəsini verib və bu əsərlər Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda nümayiş olunur.

Daha sonra qonaqlar sərgi ilə tanış olublar. Sərgidə ədibin “Zamandan məkana”, “Dünya sənin, dünya mənim”, “Şəhriyar gəlmədi”, “Düşüncələr”, “Bir ürək sındırdım, bir qız ürəyi”, “Xətainin qılıncını suvardım”, “Biz qapı açmışıq öz eşqimizə” və sair poetik misralarına həsr olunmuş qrafik sənət əsərləri yer alıb.

Məlumat üçün bildirək ki, Kirman Abdin 1959-cu ildə Şahbuz rayonunun Külüs kəndində anadan olub. 1982-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu, 1988-ci ildə isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. 1984-cü ildən ölkəmizdə və xaricdə təşkil olunan beynəlxalq sərgilərin iştirakçısı və mükafatçısıdır. Karikatura müsabiqələrində qalib gəlib və xüsusi mükafatlara layiq görülüb. Azərbaycan Rəssamlar İttifaqının, Jurnalistlər Birliyinin və eləcə də 2006-cı ildən Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin üzvüdür.

Fikrimin çəkisi çəkimdən ağır, dartmaq da çətindir, atmaq da çətin, – deyən Məmməd Araza ithaf edilən bu sərgi oktyabr ayının 16-dək sənətsevərlərin ixtiyarında olacaq.

Qeyd edək ki, bu gün Xalq şairi Məmməd Arazın doğum günüdür.

**Səbuhi HÜSEYNOV**

***Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında “Milli-mənəvi dəyərlərin qorunmasında gənclərin rolu” mövzusunda tədbir keçirilib.***

## Milli dəyərləri yaşadaq və təbliğ edək



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək bildirib ki, Azərbaycan xalqının mənəvi zənginliyinin, tarix və mədəniyyətimizin birliyimizi təcəssüm etdirən milli-mənəvi dəyərləri qoruyub saxlamaq hər bir azərbaycanlının, xüsusilə də gənclərin müqəddəs borcudur. Saleh Məhərrəmov gəncliyi xalqımızın əsrlərdən bəri qoruyub yaşatdığı mənəvi dəyərlərə daha həssas münasibət göstərməyə, dünya xalqları arasında təbliğində fəal olmağa çağırıb.

Müxtəlif fakültələrin tələbələrinin iştirak etdiyi tədbirdə Musiqişünaslıq və metodika kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İnara Məhərrəmova, Fəlsəfə və politologiya kafedrasının müdiri, dosent Novruzəli Rəhimov xalqımızın milli-mənəvi dəyərlər sisteminə daxil olan bir sıra sahələr barədə danışıblar.

Tədbirdə tələbələr Azərbaycan xalqının milli varlığının təzahürü olan milli dəyərlər sisteminin yaşadılması və təbliği ilə bağlı fikirlər səsləndirib, milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasında, milli dövlətçiliyimizin möhkəmləndirilməsində xüsusi rolundan danışıblar. Qeyd edilib ki, böyük qüvvə olan bugünkü gənclər milli-mənəvi dəyərlərə biganə münasibət göstərənlərə, mədəni irsimizi, milli zövqümüzü korlayanlara qarşı kəskin mübarizə aparmalı, milli dəyərlərimizin dünya mədəni irsində yer alması istiqamətində ardıcıl fəaliyyət göstərməlidirlər.

**Mehriban SULTAN**

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 765